UOT 332.122

*Köçəri Şamil oğlu ALLAHVERDİYEV*
*c.e.n., dosent, Azərbaycan Kooperasiya Universiteti,*

*Məryəm İsmayıl qızı DİBİROVA*
*Azərbaycan Kooperasiya Universiteti*

# QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA KƏND TƏSƏRRÜFATI SAHƏLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** Sahibkarlığın inkişafı şəraitində regionda ərzaq təminatının yaxşılaşdırılmasının konseptual əsaslarını araşdırmaqdan, Quba-Xaçmaz iqtisadi rayonunda əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsinin mövcud vəziyyəti və inkişaf meyillərini təhlil etməkdən, regionda ərzaq təminatının yüksəldilməsinin prioritetlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası -** tədqiqat işində iqtisadi statistik, müşahidə, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, təhlil üsulu və analiz-sintez metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** əldə olunan nəticələr Quba-Xaçmaz iqtisadi rayonunda aqrar-ərzaq təsərrüfatının inkişaf prioritetlərinin əsaslandırılmasına, əhalinin alıcılıq qabiliyyətli tələbinin stimullaşdırılmasının regionun ərzaq təminatının yaxşılaşdırılmasına təsirinin müəyyənləşdirilməsinə, kənd təsərrüfatının sahibkarlıq fəaliyyətinin dəstəklənməsinin ərzaq təminatının yaxşılaşdırılmasına təsirinin qiymətləndirilməsinə kömək etməyə imkan verir.

**Tədqiqatın nəticələri** – tədqiq edilən məsələlər onu göstərir ki, regionda kənd təsərrüfatı istehsalı çevik olmalı, əhalinin ərzaq təminatının müasir vəziyyətinə və iqtisadi mexanizmlərin təkmilləşdirilməsi istiqamətinə müsbət təsir etməlidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – nəzəri-metodoloji məlumatlar ümumiləşdirilərək regionun ərzaq təminatının yaxşılaşdırılması ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinin başlıca tərkib hissəsi kimi təhlil edilmişdir. Məqalənin elmi yeniliyi müəllif tərəfindən ərzaq təminatının regional mexanizmlərini müəyyənləşdirmək və ona təsir edən amilləri təsnifləşdirməklə bağlıdır. Məlum olmuşdur ki, iqtisadi rayonda ərzaq təminatının səviyyəsi sosial aspektlərdə qaneedici səviyyədə deyil.

***Açar sözlər: kənd təsərrüfatının ixtisaslaşması, aqrar-sənaye kompleksləri, təbii ehtiyatların iqtisadi qiymətləndirilməsi, əlverişli təbii şərait və s.***

## Giriş

Ölkəmizin şimal-şərq hissəsində yerləşən Quba-Xaçmaz iqtisadi rayonunun əlverişli təbii iqtisadi şəraiti bu rayonun uzun tarixi dövrlərdə iqtisadi inkişafına müsbət təsir göstərmişdir. Ərazisi 7 min kv.km olan iqtisadi rayon respublika ərazisinin 8%-ni əhatə edir. Regionun əlverişli təbii şəraiti, dəniz sahillərindən yüksək dağlıq sahələrə qədər uzanan ərazisi iqtisadi rayonun çoxsahəli kənd təsərrüfatının inkişafına zəmin yaratmışdır. İqtisadi rayonun ümumi ərazisinin 37%-i Quba, 22,1%-i Qusar, 15,6%-i Xaçmaz, 11,3%-i Siyəzən inzibati rayonlarının payına düşür [1, s. 191].

Quba-Xaçmaz iqtisadi rayonunda kənd təsərrüfatının ərazi təşkilinə rayonun relyef müxtəlifliyi, ərazidə iqlim-temperatur rejimi və kənd təsərrüfatı sahələrinin ixtisaslaşması təsir göstərir. Regionda təbii şəraitin müxtəlifliyi burada iqtisadi cəhətdən fəal qüvvələrin inkişafına və əhalinin qeyri-bərabər məskunlaşmasına səbəb olmuşdur. İqtisadi rayonun kənd təsərrüfatı sahələrinin inkişafında təbii resursların zənginliyi xüsusi əhəmiyyət daşıyır.

**Müxtəlif təbii şəraitin və ehtiyatların iqtisadi rayonun kənd təsərrüfatı sahələrinin inkişafında rolu**

İqtisadi rayonun iqlim şəraitinin əlverişli olması istehsal sahələrinin və aqrar bölmənin ixtisaslaşmasına səbəb olmuşdur. Regionun iqliminin mülayim xarakteri iqtisadi rayonda taxılçılığın,

tərəvəzçiliyin, meyvəçiliyin inkişafı üçün əlverişlidir. Xəzər dənizinin iqtisadi rayonun ərazisini əhatə etməsi və rekreasiya ehtiyatlarının zənginliyi istirahət və müalicə əhəmiyyətli sanatoriyaların yaradılmasına müsbət təsir göstərmişdir. Dəniz səviyyəsindən 600 m yüksəklikdə havanın orta illik temperaturu $+10^0$ təşkil edir.Yay aylarında isə həmin ərazilərdə temperatur $+20^0$ -dək yüksəlir. Quba-Xaçmaz iqtisadi rayonunun sahil zonasında iqlimin mülayim xarakter daşımasında Xəzər dənizi xüsusi əhəmiyyət kəsb edir. İqlimin mülayim xarakter daşıması düzənlik sahədən alçaq və yüksək dağlıq ərazilərədək kənd təsərrüfatının ixtisaslaşmasında mühüm rol oynayır.

İqtisadi rayonun kənd təsərrüfatının inkişafında və aqrar sənaye komplekslərinin formalaşmasında su ehtiyatları mühüm əhəmiyyət kəsb edir. Aparılan tədqiqatlara görə iqtisadi rayonun ərazisində 60-dək çay vardır ki, onların ən çox su ehtiyatlarına malik olanları Samur, Qusar və Gilgil çayları hesab edilir. Bu çaylar Xəzər dənizi hövzəsinə aid edilməklə iqtisadi rayonun suvarma sistemlərinin həyata keçirilməsində və elektrik enerjisi istehsalı üçün əhəmiyyət kəsb edir. İqtisadi rayonun zəngin su ehtiyatına malik olması əkinçiliyin suvarma dövründəki tələbatının ödənilməsində problem yaratmır. Rayon ərazisində yerüstü və yeraltı su ehtiyatları zəngindir. Su ehtiyatlarının bolluğu əhalinin içməli suya olan tələbatını ödəməklə yanaşı, əkin sahələrinin suvarılmasında və məhsuldarlığın artırılmasında mühüm əhəmiyyət daşıyır. Bundan əlavə iqtisadi rayonun su ehtiyatlarından Abşeron iqtisadi rayonu əhalisinin və istehsal sahələrinin su ilə təmin olunmasında geniş miqyasda istifadə olunur.

Tədqiqat apardığımız ərazinin torpaq fondu kənd təsərrüfatının bütün sahələrinin inkişafı üçün əlverişli hesab olunur. Son illərdə ərazidə olan torpaqların özəlləşdirilməsi torpaq ehtiyatlarından daha səmərəli istifadə olunmasına zəmin yaratmışdır. Torpaq ehtiyatlarının münbitliyi aqrar bölmənin bütün sahələrində məhsuldarlığın yüksəldilməsinə müsbət təsir göstərir. Yüksək göstəricilərlə tərəqqi yoluna qədəm qoyan əkinçilik kənd təsərrüfatının mühüm sahəsi olan heyvandarlığın inkişaf etdirilməsi üçün möhkəm yem bazası yaradır. Lakin inzibati rayonlar üzrə torpaq tiplərinin bir-birindən fərqlənməsi məhsuldarlığa və kənd təsərrüfatının ixtisaslaşmasına öz təsirini göstərir. Quba, Qusar inzibati rayonları ərazilərində mövcud olan torpaqlar ən çox şabalıdı və meşə altından çıxmış torpaqlardan ibarət olduğundan onların məhsuldarlığı başqa rayonlara nisbətən daha yüksəkdir. Şabran, Xaçmaz və Siyəzən inzibati rayonlarında olan torpaq ehtiyatları suvarma yolu ilə istehsal dövriyyəsinə cəlb olunur. Əsasən taxılçılıq, meyvəçilik, tərəvəzçilik üçün əhəmiyyət kəsb edir.

**Kənd təsərrüfatı sahələrinin ixtisaslaşdırılması və inkişaf istiqamətləri**

Rayonun kənd təsərrüfatının əkinçilik sahəsi əsasən suvarma şəraitində inkişaf etdirilir. Əkinçilik dövriyyəsinə cəlb olunan torpaq sahələrinin xüsusi çəkisi ildən-ilə artırılır. Bütün kateqoriyalardan olan əkin sahələri iqtisadi rayon üzrə 2005-ci ildə 104030 hektar, 2008-ci ildə 105022 hektar, 2011-ci ildə isə - 134695 hektar, o cümlədən dənli və dənli-paxlalıların ümumi əkin sahəsi 2005-ci ildə 47917 hektar, 2008-ci ildə 43433 hektar, 2011-ci ildə isə 60922 hektar təşkil etmişdir. İqtisadi rayon üzrə 2005-ci ildə ümumi əkin sahələrinin 46%-i, 2008-ci ildə- 41,3%-i, 2011-ci ildə 45,2%-ini dənli və dənli-paxlalar təşkil etmişdir.

Regionun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Bu sahə əsasən tərəvəz və meyvə istehsalı üzrə ixtisaslaşmışdır. Belə ki, rayonun ümumi məhsulunda kənd təsərrüfatının payı 2003-cü ildə 65,4%, 2011-ci ildə isə 36,6%-ə bərabər olmuşdur. Eyni zamanda 2011-ci ildə iqtisadi zonada taxılın məhsuldarlığı ölkə üzrə orta göstəricidən 24,1 faiz, kartofun məhsuldarlığı 1,41 dəfə, bostan bitkilərinin məhsuldarlığı 1,43 dəfə aşağı, tərəvəzin məhsuldarlığı isə 1,43 dəfə yüksək olmuşdur [2, s. 22].

İnzibati rayonlar üzrə dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi Quba rayonu üzrə 2005-ci ildə 10,3%, 2008-ci ildə 8,5%, 2011-ci ildə 17,3%, Qusar rayonunda 30,5-30,5-28,3%, Xaçmaz rayonunda 39,5-37,2-38,4%, Şabran rayonunda 13,7-15,8-12,7%, Siyəzən rayonunda 6,0-8,0-3,3% təşkil edir. Dənli və dənli-paxlalı bitkilər üzrə əkin sahələrinin inzibati rayonlar üzrə xüsusi çəkisi 1.1 №-li cədvəldə verilmişdir.

*Cədvəl 1.1*

***Quba-Xaçmaz iqtisadi rayonu üzrə dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi (xüsusi çəkisi %-lə).***

| İnzibati rayonlar | İllər üzrə | | |
|---|---|---|---|
| | 2005 | 2008 | 2011 |
| Quba | 10,3 | 8,5 | 12,3 |
| Qusar | 30,5 | 305 | 28,3 |
| Xaçmaz | 39,5 | 37,2 | 38,4 |
| Şabran | 13,7 | 15,8 | 12,7 |
| Siyazən | 6,0 | 8,0 | 3,3 |
| Cəmi: | 100 | 100 | 100 |

Quba- Xaçmaz iqtisadi rayonu üzrə kənd təsərrüfatı bitkilərinin əkin sahələri (ha) sütunlu diaqramda göstərilmişdir (şəkil 1).




***Şəkil 1 .Quba-Xaçmaz iqtisadi rayonu üzrə kənd təsərrüfatı bitkilərinin cəmi əkin sahəsi, ha***

Şəkil 1-i təhlil etdikdə aşağıdakı nəticəyə gəlmək olar. İqtisadi rayon üzrə kənd təsərrüfatı bitkilərinin birlikdə əkin sahəsinin (ha) 2000-2011-ci illər ərzində 56621 hektar artdığı müəyyən olunmuşdur.

İqtisadi rayon üzrə bitkiçilik sahələrinin ixtisaslaşmasında tərəvəz əkini son illərdə daha da inkişaf etdirilir. İlkin olaraq bu sahənin inkişafı ərazinin mülayim iqlimi və tərəvəzçiliyin inkişafı üçün əlverişli torpaq sahəsinin olması ilə əlaqələndirilir. Tərəvəz əkini sahəsi iqtisadi rayon üzrə 2005-ci ildə 2933 hektar, 2008-ci ildə 3611 hektar, 2011-ci ildə 8683 hektara çatmışdır. İqtisadi rayon üzrə ümumi əkin sahəsinin 2005-ci ildə 2,8%-i, 2008-ci ildə 3,4%-i, 2011-ci ildə 6,4%-i tərəvəzçiliyin payına düşür.

**Respublikamızda Quba-Xaçmaz iqtisadi rayonunun rolu və əhəmiyyəti**

Quba-Xaçmaz iqtisadi rayonu respublikanın mühüm meyvəçilik rayonu kimi tanınır. Bu sahədə üzümçülük, meyvə və giləmeyvə daha üstün yer tutur. İqtisadi rayonda üzüm əkini sahəsi 2005-ci ildə 12746 hektar və yaxud ümumi əkin sahəsinin 12,2%-i, 2008-ci ildə 10777 hektar yaxud 10,2%-i, 2011-ci ildə 2288 hektar, yaxud cəmi əkin sahəsinin 16,9%-ni əhatə etmişdir. Üzümçülüyün inkişaf etdiyi əsas rayonlar Xaçmaz, Şabran, Siyazən və qismən də Quba rayonudur.

İnzibati rayonlar üzrə meyvə və giləmeyvəçiliyin ən çox inkişaf etdiyi rayon Qusar, Xaçmaz, Quba və Şabran rayonlarıdır. İqtisadi təhlil göstərir ki, Quba rayonunda meyvə və giləmeyvə bağlarının tutduğu sahə 2005-ci ildə 10881 hektar, 2008-ci ildə 2250 hektar, 2011-ci ildə 5299 hektar, Qusar rayonu üzrə 2005-ci ildə 8795 hektar, 2008-ci ildə 3080 hektar, 2011-ci ildə 5250 hektar, Xaçmaz rayonunda 3703-5601-5288 hektar, Şabranda 190-508-510 hektar, Siyəzən rayonunda 87-85 hektara çatmışdır. Azərbaycanda meyvəçiliyin inkişaf etdiyi region hesab edilən Quba-Xaçmaz iqtisadi rayonunda bu sahənin inkişafına xüsusi fikir verilməlidir.

Buğda əhalinin zəruri istehlak vasitəsi qrupuna daxil olan məhsullardan hesab edilir. İqtisadi rayonda ümumi əkin sahəsinin 2005-ci ildə 25,4%-ni, 2008-ci ildə 33,5%-ni, 2011-ci ildə 34,8%-ni buğda əkini sahəsi təşkil etmişdir.

İqtisadi rayonun bütün inzibati rayonlarında taxılçılıq, o cümlədən buğda əkini sahəsi geniş ərazini əhatə edir.

**Quba-Xaçmaz iqtisadi rayonunda kənd təsərrüfatı məhsullarının bitkiçilik üzrə tədarükü**

İqtisadi rayonda bitkiçilik üzrə aparılan iqtisadi təhlillər göstərir ki, iqtisadi rayonda əkinçiliyə yararlı torpaq ehtiyatlarının istehsal dövriyyəsinə cəlb olunması məhsul istehsalının artırılmasına zəmin yaratmış olar.

Əkinçilikdə müasir aqrotexniki qaydalardan istifadə edilməsi məhsul istehsalının artırılmasına şərait yaratmışdır. Quba-Xaçmaz iqtisadi rayonunda bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatında bitkiçilik məhsulları dinamik inkişafa malik olmuşdur. Əlverişli torpaq tiplərinin olması kartof istehsalının ildən-ilə artırılmasına müsbət təsir göstərmişdir. İqtisadi rayonda 2005-ci ildə kartof istehsalı - 536 ton, 2008-ci ildə 20642 ton, 2011-ci ildə isə 34601 ton təşkil etmişdir.

Regionun rayonlarında kartof istehsalı illər üzrə müxtəlif iqtisadi göstəricilərə malik olmuşdur. Əgər Quba rayonuna 2005-ci ildə iqtisadi rayon üzrə istehsal edilən kartofun 9,2%-i, 2008-ci ildə 79,4%-i, 2011-ci ildə 21,7%-i düşürsə, Qusarda 85,7-46,3-39,3%, Xaçmazda 2,5-31,6-36,9%, Şabranda 2,7-2,4-1,4%, Siyəzəndə 0-0,3-0,5% istehsal olunmuşdur (cədvəl 1.2).

*Cədvəl 1.2*

***Quba-Xaçmaz iqtisadi rayonu üzrə kartof istehsalının iqtisadi göstəriciləri (%-lə)***

| İnzibati rayonlar | İllər üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005(istehsal, tonla) | Xüsusi çəkisi %-lə | 2008(istehsal, tonla) | Xüsusi çəkisi %-lə | 2011(istehsal, tonla) | Xüsusi çəkisi %-lə |
| Qusar | 459 | 85,6 | 9514 | 46,3 | 13609 | 39,3 |
| Quba | 49 | 9,2 | 4018 | 79,4 | 7529 | 21,7 |
| Xaçmaz | 13 | 2,4 | 6537 | 31,6 | 12784 | 36,9 |
| Şabran | 15 | 2,8 | 513 | 2,4 | 478 | 1,4 |
| Siyəzən | - | - | 60 | 0,3 | 201 | 0,5 |
| Cəmi: | 536 | 100 | 20642 | 100 | 34601 | 100 |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Azərbaycanın Regionları. B. 2011-ci il materialları əsasında tərtib olunmuşdur [3,s.53].*

Kartof əhalinin zəruri ərzaq məhsulu olduğundan bütün inzibati rayonlarda istehsalın artırılması üçün əlverişli şərait vardır. Xüsusilə Qusar və Xaçmaz rayonlarında torpaq tiplərinin münbitliyi kartof istehsalında məhsuldarlığın daha yüksək göstəricilərə malik olmasına şərait yaradır.

Tərəvəzçilik iqtisadi rayonun ixtisaslaşdırılmış kənd təsərrüfatı məhsullarından sayılır. Bütün inzibati rayonlarda inkişaf etmişdir. Ölkəmizdə istehsal edilən tərəvəz məhsullarının 30-40%-i Quba-Xaçmaz iqtisadi rayonunun payına düşür. İqtisadi rayonda tərəvəz istehsalı dinamik inkişafa malik olan sahələrdən hesab edilir.

Quba-Xaçmaz iqtisadi rayonunda əlverişli təbii iqtisadi şəraitin olması bitkiçiliklə yanaşı heyvandarlığın inkişafına müsbət təsir göstərmişdir. Heyvandarlıq iqtisadi rayonda kənd təsərrüfatının əsas aparıcı sahələrindən hesab edilir. Heyvandarlıqda əsas yeri iribuynuzlu maldarlıq, qoyunçuluq, qismən də donuzçuluq təşkil etmişdir.

İqtisadi rayon üzrə 2005-ci ildə bütün kateqoriyadan olan mal-qaranın sayı 494083 baş, 2008-ci ildə 614053 baş, 2011-ci ildə isə 662285 baş təşkil etmişdir. Ümumi mal-qaranın içərisində həmin illərə müvafiq olaraq 45,2-44,4-44,5%-ni inəklər və camışlar təşkil etmişdir.

Kənd təsərrüfatının yerləşdirilməsi relyef və iqlimlə bağlı olduğundan meyvə-tərəvəz, üzüm, taxıl sahələri əsasən dağətəyi və düzənlik hissələrdə inkişaf etdirilir. İqtisadi rayonun kənd təsərrüfatına yararlı torpaqlarının 35%-i – 135 min hektarı suvarılır ki, bu respublikanın suvarılan torpaqlarının 10%-ni təşkil edir [4, s. 155-256].

Quba-Xaçmaz iqtisadi rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etdiyi üçün, torpaq tipləri, inzibati rayonlar üzrə yerləşməsi və məhsuldarlığı vacib şərtdir. İqtisadi rayonun təbii şəraitindəki müxtəliflik müxtəlif torpaq örtüyü yaratmışdır. Dağlıq və dağətəyi torpaq örtüyü humuslu, atmosfer çöküntülərinin miqdarına görə rütubətlə təmin edilmişdir. Bu sahələr Qusar, Quba, Şabran inzibati ərazisinin yuxarı dağlıq, dağətəyi torpaqları meşəaltı məhsuldar şabalıdı dağ-çəmən torpaqlarından ibarətdir. Bu sahələrdə əsasən tərəvəzçilik, kartofçuluq, meyvəçilik və heyvandarlığın inkişaf etdirilməsi iqtisadiyyata güclü təkan verir. Xəzər dənizi sahillərinə yaxınlaşdıqca atmosfer çöküntüləri azaldığından, rütubət çatışmamazlığı üzündən bitki örtüyü azaldıqca uzun illər ərzində torpaq səthində qumsallıq artmış, humus qatı azalmışdır. Bu ərazilər tərəvəzçilik, üzümçülük və heyvandarlıq istiqamətində inkişaf etdirilsə də, suvarma suyundan istifadə edilməsi (xüsusilə Şabranın dənizə yaxınlaşan ərazilərində) şəraitində yüksək məhsul almaqla iqtisadiyyatı yüksəltmək olar. İqtisadi rayonun Quba, Xaçmaz inzibati ərazilərinin dağətəyi sahillərinin dənizə yaxın yerlərində çəmən bitki örtüyü altından çıxmış qalın humus təbəqəsinə malik qaramtıl-boz torpaqlarında meyvəçilik-tərəvəzçilik-heyvandarlıq istiqamətində inkişaf etdirilməklə yüksək məhsul alınır.

İqtisadi rayonun inzibati rayonlarında ərazilər üzrə iqtisadiyyatın əsasını aqrar sahə təşkil edir. İqtisadiyyatın inkişafı uzun müddət kənd təsərrüfatının hesabına olmuşdur. Kənd təsərrüfatının güclü inkişafı həmin məhsulların emal bazasının yaradılmasına, bu da öz növbəsində aqrar-sənaye sahələrinin inkişafına müsbət təsirini göstərmişdir.

### *Nəticələr*

1.Tədqiqat apardığımız iqtisadi rayonda kartof istehsalının xüsusi çəkisinin (%-lə) Siyəzən, Şabran, Quba, Xaçmaz və Qusar inzibati rayonları üzrə artdığı müəyyən edilmişdir.

2. İqtisadi rayonda iqlimin mülayim xarakter daşıması düzənlik sahədən alçaq və yüksək dağlıq ərazilərədək kənd təsərrüfatının ixtisaslaşdırılmasında mühüm rol oynayır.

3. Ərazinin torpaq ehtiyatlarının münbitliyi aqrar sektorun bütün sahələrində məhsuldarlığın yüksəldilməsinə və məhsulun maya dəyərinin aşağı düşməsinə müsbət təsir göstərir.

4. Region üzrə bitkiçilik sahələrinin ixtisaslaşmasında tərəvəz və əkinçiliyin son illərdə daha böyük sürətlə inkişaf etməsi ilk növbədə ərazinin mülayim iqlimi və əlverişli torpaq sahəsinin mövcudluğu ilə bağlıdır.

5. Quba-Xaçmaz iqtisadi rayonu üzrə aparılan iqtisadi-coğrafi təhlillər göstərir ki, əkinçiliyə yararlı torpaq ehtiyatlarının istehsal dövriyyəsinə cəlb olunması məhsul istehsalının artırılmasına zəmin yaratmış olar.

6. İqtisadi rayonun Xəzər dənizi sahillərinə yaxın ərazilərində atmosfer çöküntüləri azalır, rütubət çatışmazlığı üzündən bitki örtüyü azalır, torpaq səthində qumsallıq artmış və humus qatı azalmışdır. Bu ərazilərdə suvarma şəraitində (xüsusilə Şabranın dənizə yaxın ərazilərində) tərəvəzçilik, üzümçülük və heyvandarlıq istiqamətlərində yüksək məhsuldarlığa nail olmaqla iqtisadiyyatı yüksəltmək olar.

### ƏDƏBİYYAT

1. Z.S.Məmmədov. Regionların iqtisadi inkişaf problemləri. Bakı, 2007.
2. Quba-Xaçmaz iqtisadi rayonunun pasportu. Bakı, 2012.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın Regionları. Bakı. 2011.
4. M.T.Əliyev. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı-2002.
5. K.Ş.Allahverdiyev. Təbiətdən istifadənin iqtisadiyyatı. Bakı-2009.
6. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. III cild. Bakı-2000.

*Кочар Шамиль оглы Аллахвердиев*
*к.э.н., доцент, Азербайджанский Университет Кооперации,*

*Марьям Исмаил кызы Дибирова*
*Азербайджанский Университет Кооперации*

## Направления развития отраслей сельского хозяйства Губа-Хачмазского экономического района

*Резюме*

**Цель исследования** – изучить концептуальные основы улучшения продовольственного обеспечения в регионе в условиях развития предпринимательства, проанализировать текущее состояние и тенденции развития удовлетворения потребностей населения в продовольственной продукции в Губа-Хачмазском экономическом районе, определить приоритеты повышения продовольственного обеспечения в регионе.

**Методология исследования** – в исследовательской работе использованы методы экономической стастики, наблюдения, логического обобщения, системного подхода, метод анализа и анализ-синтез.

**Прикладная значимость исследования** – полученные результаты позволяют обосновать приоритеты развития аграрно-продовольственного хозяйства в Губа-Хачмазском экономическом районе, определить влияние стимулирования покупательского спроса населения на улучшение продовольственного обеспечения региона, оценить влияние поддержки предпринимательской деятельности сельского хозяйства на улучшение продовольственного обеспечения.

**Результаты исследования** – изученные вопросы показывают, что сельскохозяйственное производство в регионе должно быть гибким и положительно влиять на современное состояние продовольственного обеспечения населения и направление совершенствования экономических механизмов.

**Оригинальность и научная новизна исследования** – теоретико-методологические данные обобщены и проанализированы улучшение продовольственного обеспечения региона как основной составляющей обеспечения продовольственной безопасности страны. Научная новизна статьи связана с выявлением автором региональных механизмов продовольственного обеспечения и классификацией факторов, влияющих на него. Выяснилось, что уровень продовольственного обеспечения в экономическом районе не на должном уровне в социальных аспектах.

***Ключевые слова: специализация сельского хозяйства, агропромышленные комплексы, экономическая оценка природных ресурсов, благоприятных природных условий и др.***

*Kochari Shamil Oghlu Allahverdiyev*
*associate professor, Azerbaijan Cooperative University,*

*Maryam Ismayil Dibirova*
*Azerbaijan Cooperative University*

## Development directions of agricultural sectors in Guba-Khachmaz economic region.

*Summary*

**Purpose of the study** - investigate theuolual basis of improving food supply in the region in the conditions of entrepreneurship development, to analyze the current situation and development

trends of the population's demand for food products in Guba - Khachmaz economic region, to determine the priorities of increasing food supply in the region.

**Methodology -** in the research work, Economic stastistics, observation, logical generalization, systematic approach, methods of analysis and methods of analysis-synthesis were used.

Significance of the study-the results obtained enable us to substantiate the development priorities of agro-food economy in Guba-Khachmaz economic region, determine the impact of stimulation of the purchasing power demand of the population on the improvement of the food supply of the region, assess the impact of support of agricultural entrepreneurship on the improvement of food supply.

**The results of the study** – the issues studied show that agricultural production in the region should be flexible and have a positive impact on the modern state of food supply of the population and the improvement of economic conditions.

**Originality / value** – theoretical-methodological data were summarized and analyzed as the main component of ensuring food security of the country.The scientific novelty of the article is to determine the regional dimensions of food supply by the author and classify the factors affecting it. It turned out that the level of food supply in the economic district is not satisfactory in social aspects.

***Key words: agricultural specialization, agricultural industry, economic assessment of Natural Resources, favorable natural conditions, etc.***